


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 128 (24.015)

*9 iyul 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurban bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

***9 iyul Azərbaycan Diplomatlarının Peşə Bayramıdır***

# Diplomatiya xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir

*Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli Sərəncamı ilə hər il 9 iyul tarixi Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir.*

***“Xarici siyasət, ilk növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu xarici siyasət strategiyası dövlətçiliyimizin etibarlı təminatıdır. Azərbaycana hər iki rəhbərliyi dövründə ulu öndər xarici əlaqələrimizin genişlənməsini daim diqqətdə saxlamış və ölkəmizin beynəlxalq münasibətlər sisteminə inteqrasiyasına nail olmuşdur. 1990-1993-cü illərdə isə ümummilli lider Naxçıvan Muxtar Respublikasında müstəqil Azərbaycanın xarici siyasət kursunun əsasını qoymuşdur. Dahi öndərin Naxçıvana rəhbərliyi dövründə 70 ildən sonra üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmış, muxtar respublikanın adından “Sovet Sosialist” sözləri çıxarılmış, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməmişdir. Digər tərəfdən isə qonşu ölkələrlə münasibətlərə üstünlük verilmiş, Türkiyə və İranla xarici iqtisadi əlaqələr yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında xarici siyasətlə bağlı qəbul edilən qərarlar sonrakı dövrdə ölkəmizin diplomatik münasibətlər sisteminin mühüm tərkib hissəsinə çevrilmiş və uğurlu xarici siyasətin təməlini formalaşdırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“1990-1993-cü illərdə Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Almaniyanın, Fransanın, Rusiyanın, BMT-nin və digər beynəlxalq təşkilatların səfir və xüsusi nümayəndələri dəfələrlə muxtar respublikaya səfərlər etmişlər. Ulu öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi xarici nümayəndələrlə keçirilən görüşlər zamanı Azərbaycan həqiqətlərini, ölkəmizin üzləşdiyi siyasi və iqtisadi böhranı, xüsusilə də torpaqlarımızın işğal faktını dünya ölkələrinin və beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq məsələyə ədalətli mövqe tələb etmişdir. O dövrdə Naxçıvanın dünyanın böyük dövlətlərinin və mötəbər beynəlxalq təşkilatlarının diqqət mərkəzinə çevrilməsi bir tərəfdən mövcud tarixi-siyasi şəraitlə bağlı idisə, digər əsas səbəb dünya şöhrətli siyasi xadim Heydər Əliyev şəxsiyyətinə göstərilən ehtiramın daha bir ifadəsi idi”.***



Müstəqil xarici siyasət, beynəlxalq arenada önəmli mövqe, qüdrətli ordu, güclü iqtisadiyyat və qalib ölkə – bu ifadələr tarixinin ən şanlı dövrlərindən birini yaşayan Azərbaycanın müasir reallıqlarını ən gözəl şəkildə təsvir edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasi xətt ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda beynəlxalq hüququn subyektləri ilə fəal əməkdaşlıq edir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə ölkəmiz öz mövqeyini bildirir və mənafeyini qoruyur. Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu gün düşünülmüş daxili və xarici siyasətlə Azərbaycan həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları ilə Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Hazırda Azərbaycan Respublikasının dünyanın 77 ölkəsində diplomatik nümayəndəliyi və 21 konsulluğu aktiv fəaliyyət göstərir. Həmçinin Azərbaycanda 88 ölkənin və beynəlxalq təşkilatın nümayəndəlikləri, 15 xarici dövlətin konsulluqları akkreditə olunmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin bütün səfərləri, keçirdiyi görüşlər, mötəbər tribunalarda etdiyi çıxışlar ancaq bir amala – Azərbaycanın dövlətçiliyinə, onun milli maraqlarına və Ermənistanın işğalına son qoyulmasına hesablanmışdı. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi və tarixi ədalət təmin olundu. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfər ölkəmizin hərbi qüdrəti ilə yanaşı, həm də ümummilli liderimiz Heydər Əliyevin böyük müdrikliklə işləyib hazırladığı və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət strategiyasının qələbəsidir. Bu qələbənin ən mühüm diplomatik nəticələrindən biri isə 30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması və regionda kommunikasiyaların açılması olacaqdır. Ölkə Prezidenti demişdir: ***“Zəngəzur dəhlizi artıq reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq”.***

Azərbaycanın diplomatiya tarixindən bəhs olunarkən ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanda tarixən formalaşmış diplomatik ənənələr mütləq qeyd olunmalıdır. 5 minillik şəhər mədəniyyəti tarixinə malik olan Naxçıvan şəhəri X əsrdə Naxçıvan şahlığının, XII əsrdə qüdrətli Atabəylər dövlətinin, XVIII əsrdə Naxçıvan xanlığının, 1918-ci ildə Araz-Türk Respublikasının paytaxtı olması ilə bu şərəfli missiyanın mərkəzində yer almışdır. Vətənimizin xarici əlaqələrində mühüm rol oynamış tarixi diyar Azərbaycana görkəmli siyasi xadimlər bəxş etmişdir. Mahir diplomat Behbud ağa Şahtaxtinski Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanmasında qətiyyət ortaya qoyaraq diplomatiya tariximizdə silinməz izlər buraxmışdır.

Ulu öndər Naxçıvan Muxtar Respublikasının həmsərhəd və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərin genişlənməsinə daim diqqət yetirmişdir. Onun tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq Məntəqəsi fəaliyyətə başlamış, bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin 2005-ci il 31 oktyabr tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi təsis olunmuşdur.

Bu gün Naxçıvanda həyata keçirilən uğurlu siyasət nəticəsində qonşu və digər dövlətlər, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq üçün əlverişli zəmin yaranmışdır. Muxtar respublika ilə əlaqə qurmaq istəyən dövlətlərin, beynəlxalq təşkilatların, həmçinin muxtar respublikaya səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır. Həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərə və onların muxtar qurumlarına nümunə kimi göstərilir. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, 2012-ci ildə Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, 2014-cü ildə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi muxtar respublikanın xarici siyasət müstəvisindəki əhəmiyyətinin mühüm göstəricisi olmuşdur.

Bu il may ayının 7-də Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə “Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda konfrans keçirilmişdir. Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasında müstəqil Azərbaycanın xarici siyasət kursunun əsasını qoymuş ulu öndər Heydər Əliyevin Azərbaycanın xarici əlaqələrinin inkişafı və beynəlxalq münasibətlər sisteminə inteqrasiyası, xarici dövlətlərlə bərabərhüquqlu və ölkəmizin mənafeyinə xidmət edən ikitərəfli əlaqələrin yaradılması sahəsində fəaliyyətinə bir daha nəzər salmışdır.

Bu gün Azərbaycanın xarici əlaqələrində Naxçıvan Muxtar Respublikasının fəal iştirakı diqqətdə saxlanılır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması Azərbaycanın xarici əlaqələrində muxtar respublikanın iştirakının daha da genişlənməsinə töhfə verməklə yanaşı, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsini təmin edir. İdarənin işinin səmərəli təşkili, kadrların seçilməsi və onların peşəkarlıq qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilir. Hazırda idarənin 23 əməkdaşı Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinə ezam olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar...”*** *Bu fikirləri əldə rəhbər tutan idarənin kollektivi bundan sonra da peşəkar kadr kimi yetişəcək, ölkəmizin milli və siyasi maraqlarının qorunmasında yorulmadan fəaliyyət göstərəcəkdir.*

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin mətbuat xidməti***

## Xeyirxahlıq, mərhəmət, sevgi dolu bayram



*Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda yaşadılır və uğurla davam etdirilir. Dini bayramlarımız dövlət səviyyəsində qeyd olunur, məscidlər, ziyarətgahlar tikilərək və ya bərpa olunaraq insanların istifadəsinə verilir. Dini-mənəvi dəyərlərimizi özündə təcəssüm etdirən müqəddəs bayramlarımızdan biri də Qurban bayramıdır.*

Bu bayramda icra edilən mərasimlər birlik və həmrəyliyin simvolu olmaqla həm də xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərə bağlılığını, humanizm və xeyirxahlıq hisslərini tərənnüm etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iyulun 7-də Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: ***“Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir. Azərbaycan xalqı əsrlərboyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.***

***Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm”.***

Muxtar respublikamızda digər dini bayramlarımız, eləcə də Qurban bayramı hər il yüksək səviyyədə qeyd edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılmasına göstərdiyi xüsusi diqqət və qayğı onun rəhbərliyi və tövsiyəsi ilə dini-mənəvi dəyərlər sahəsində görülən işlər İslam dininin həyat və mənəviyyatımızdakı rolunun, dövlət-din münasibətlərinin tənzimlənməsi ilə cəmiyyətdə formalaşan tolerantlıq, multikultural dəyərlərin qorunmasının vacibliyini bir daha ön plana çəkir. Həmçinin cari il mart ayının 29-da dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə müşavirədə Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: ***“...Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura muxtar respublikada dini bayramların, ayinlərin və yas mərasimlərinin bundan sonra da dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsinə diqqət etməli, məscidlərdə oxunan xütbələr mənəvi dəyərlərimizə zidd olmayan mövzulara həsr olunmalı, vətənpərvərlik və torpağa bağlılıq kimi ali dəyərlər İslam əxlaqı prizmasından izah edilməlidir... Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dini maarifləndirmə tədbirlərinin effektivliyini artırmalı, din və cəmiyyət, din və dövlət münasibətlərinin mahiyyətini ifadə edən maarifləndirici tədbirlər keçirilməli, müzakirələr aparılmalı, kütləvi informasiya vasitələrinin imkanlarından səmərəli istifadə olunmalıdır...”***

***“Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır”***, – deyən Ali Məclis Sədrinin diqqət və qayğısı ilə Naxçıvan bu gün də İslam sivilizasiyasının əsas mərkəzi, elm, mədəniyyət beşiyi kimi öz ünvanını qoruyub saxlamışdır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsində səbəbi məhz İslamın ən güclü dayaqlarından biri kimi dəyərləndirilən bu torpaqda İslam dəyərlərinin yaşadılması, tarixi-mədəni irsin inkişaf etdirilməsi olmuşdur. Həmçinin dini-mədəni abidələrin tədqiqi, tikintisi və bərpası dini bayramlarımızın ənənələrimizə uyğun şəkildə icrasında, insanların ibadətlərini rahat yerinə yetirməsində mühüm rol oynayır. İslamın əsas bayramlarından sayılan, yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Qurban bayramı da muxtar respublika sakinləri tərəfindən böyük sevinclə qeyd edilir.

Tarixi mənbələrə əsasən deyə bilərik ki, Qurban bayramı müsəlman təqviminin (Hicri-qəməri təqvimi) 12-ci ayı olan Zilhiccə ayının 10-cu günü, Məkkəyə həcc dövründə qurbanlıq heyvanların kəsilməsi şəklində və adətən, 3 gün davam edir. Müqəddəs kitabımız “Qurani-Kərim”də yazılır ki, İbrahim Peyğəmbər Şama yetişdikdən sonra dua edib deyir: “Ey rəbbim! Mənə salehlərdən olan bir övlad bəxş et! Ulu Tanrı ona həlim xasiyyətli bir oğlan uşağı İsmayılı müjdə verdi”. Yuxuda Allah (s.s.) İbrahim Peyğəmbərə oğlunu qurban verməyi (onların Allaha inamını yoxlamaq üçün) əmr edir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olur, İsmayılın özü də qurban olmağa razılaşır. Lakin Uca Allah bunu öz elçisinə rəva bilmir və qurbanlıq üçün ona bir qoç göndərir. Elə bu anda səs gəlir: “Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü təsdiq etdin! (Sənə yuxuda nə əmr olunmuşdursa, onu yerinə yetirdin. Allah sənə lütf edərək bir qoç kəsməyi buyurur)”. Buna görə də, bu bayramda kəsilən qurbana “İsmayıl qurbanı” da deyilir.

İbrahimin qoca yaşında Allahın ona nəsib etdiyi, çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması Peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur.

Qədim türklər yaşadıqları yerləri yaman, bədxah ruhlardan qorumaq, ilahi varlığa yaxınlıq əldə etmək məqsədilə qurbanlar kəsərdilər. Ən böyük qurban isə at olmuşdur. Atın qurban verilməsi adəti dünyanın bir sıra xalqlarında geniş yayılmışdır. Digər heyvanlardan da qurbanlıq kimi erkək heyvanlar üstün sayılmış, dişi heyvanlar isə qurban kəsilməmişdir. “Kitabi-Dədə Qorqud” dastanında qurbanlıq kimi atdan ayğır, qoyundan qoç, dəvədən buğra qurbanlığı göstərilir. Bir çox etnoqrafik tədqiqatlarda qurbanın meydana gəlməsi ölüləri ac qoymamaq, ruhların rəğbətini qazanmaq, onları rəhmə gətirmək adəti və sair ilə əlaqələndirilir”.

El deyimində də təsvir edildiyi kimi, insanlar canlarından çox sevdikləri – ana, Vətən, torpaq, el yolunda, candan da şirin bala uğrunda özlərini qurban verməyə hazır olmuşlar:

*Əzizinəm, şəhiddir,*
*O, müqəddəs şəhiddir.*
*Canını vətəninə*
*Qurban verən şəhiddir.*

Qurban vermək, qurban kəsmək adəti İslamdan çox-çox əvvəl dünyanın bir çox xalqları tərəfindən icra edilsə də, müqəddəs dinimiz Allah yolunda qurban verməkdə dönüş yaratmaqla bəşəriyyəti insanı qurban verməkdən çəkindirmiş, hətta bu cür qurbanı qadağan etmişdir.

Bütün müsəlmanlar kimi bizim xalqımıza da əziz olan bu bayramda yalnız ev heyvanları: xırdabuynuzlu heyvanlar (qoç, qoyun, toğlu, keçi və sair), dana, dəvə, öküz və ya bu cinsdən olan heyvanlar kəsilir. Digər heyvanların və quşların qurban kəsilməsi İslam dinində məqsədəuyğun hesab edilmir. Qurban adətlərinə görə, qurban kəsiləcək heyvan sağlam olmalı, heç bir şikəstliyi olmamalıdır. Adətən, qurban kəsiləcək heyvan əvvəlcə seçilib bəslənilər. İslami qaydaya görə, əgər qurban xırdabuynuzlu və erkəkdirsə, yaş həddi 7 aylıqdan böyük olmalı, əgər qaramaldırsa, bir ili tamam olub ikinci ilə keçməlidir, dəvədirsə, mütləq 7 yaşa keçməsi vacib hesab olunur. Xalq şairi Səməd Vurğun öz şeirində Qurban bayramından belə bəhs etmişdir:

*Qurban bayramıydı,*
*gülürdü dağlar,*
*Qonşumuz xınalı bir erkək kəsdi.*

Müqəddəs kitabımız “Qurani-Kərim”də də yazılır: “Rəbbin üçün namaz qıl və qurban kəs! De ki: “Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür”. “Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər”. Mərasimlərdə kəsilən qurbandan (niyyətdən asılı olaraq) bir hissə pay götürülür, digər hissələr isə ehtiyac sahiblərinə paylanır.

Qurban bayramı günü gəlinə və ya nişanlı qıza “qurban payı” aparmaq adəti geniş yayılmışdır. Bu adət günümüzdə də mövcuddur. “Qurban payı” ailənin maddi vəziyyətindən asılı olur. Bəzən bir şaqqa (heyvanın bir tərəfi), bəzən də bir neçə kiloqram ət aparırlar. İmkanlı ailələr isə buynuzlu qoçu bəzəyib qız evinə, gəlin evinə götürürlər. Qurbana 2-3 ay qalmış Məkkəyə gedər, Həcc əməllərini, ziyarətin 10-cu günü onlardan başlıcası sayılan qurbankəsmə əməlini də yerinə yetirərlər. Qaydaya görə Həccə ziyarətə gedənin evdə birillik ruzisi olmalı, eləcə də qohumunun, qonşusunun dolanışığı yaxşı olmalı, yəni ehtiyacı olmamalıdır.

Qurbankəsmə mərasimi İslamdan əvvəl günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq üçün nəzərdə tutulurdusa, sonradan dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərlə xarakterizə edilir, özü ilə hamıya saflıq, təmizlik gətirir. Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri onun din, məzhəb ayrı-seçkiliyinə yol verilmədən paylanılmasıdırsa, qurbanlığın şərtlərindən digəri isə qurban kəsməyin yalnız buna imkanı olan adamların boynunda haqq olmasıdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib hesab olunmur. Bu bayramda hamı sevinir, ona görə ki, Allaha xoş gedən əməli icra edir və başqalarından mərhəmət və qayğı görür.

Muxtar respublikamızda hər il böyük təntənə ilə, dini ayinlərə uyğun şəkildə qeyd olunan Qurban bayramında məscidlərdə bayram namazı qılınır, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsi dərin ehtiramla yad edilir, Naxçıvan şəhərindəki məscidlərdə qurban əti paylanılır. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Qurban bayramı münasibətilə muxtar respublikanın bütün bölgələrində şəhid ailələrinə, Vətən müharibəsi iştirakçılarına və qazilərə, sağlamlıq imkanları məhdud şəxslərə, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrə bayram sovqatları verilir. Muxtar respublikamızda yaşayan əcnəbilərə, xüsusilə də ali təhsil alan xarici ölkə vətəndaşlarına müxtəlif milli, dini bayramlarda sovqatların verilməsi dövlət qayğısının təzahürü kimi ənənə halını almışdır. Qurban bayramında da əcnəbi tələbələrə qurban paylarının verilməsi rəğbət və minnətdarlıqla qarşılanır. Bu, ulu diyarımızda humanizm prinsiplərinin, milli və dini dəyərlərimizin dövlət səviyyəsində qorunub yaşadılmasına, həmrəyliyə ideal nümunədir.

*Ümummilli liderimiz Heydər Əliyev demişdir:* ***“Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zamanətidir”.*** *Mübarək bayram günlərində etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə hər birinizin Qurban bayramını təbrik edirik!.*

**Güntac ŞAHMƏMMƏDLİ,**
**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin dosenti***

## Açıq Səma Altında Muzeyin yaradılmasının 20 illiyi qeyd olunub

*Dünən Açıq Səma Altında Muzeyin yaradılmasının 20 illiyi münasibətilə tədbir keçirilmişdir.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov çıxış edərək bildirmişdir ki, xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixi və mədəniyyətinin inkişaf yolunu əks etdirən muzeylər ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Azərbaycanda muzey işinin inkişafı, muzeylər şəbəkəsinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hələ ötən əsrin 70-ci illərindən başlayaraq muzey işinin inkişafına böyük qayğı göstərmiş, ölkəmizin bütün bölgələrində nadir sənət incilərinin və milli sərvətlərin qorunduğu və nümayiş etdirildiyi yeni muzeylərin yaradılmasının təşəbbüskarı olmuşdur.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət mədəniyyət siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, milli-mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet vəzifə kimi daim ön planda saxlanılır.

Qeyd olunmuşdur ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi xalqımızın min illər ərzində yaratdığı zəngin maddi mədəniyyət nümunələri, daş qoç heykəllər, qədim qalalar, qayaüstü təsvirlər, yüksək memarlıq xüsusiyyətləri ilə seçilən abidələrlə zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada tarix-mədəniyyət abidələrinin qorunması, onların bərpası və konservasiyası son illər ərzində geniş vüsət almış, abidələrin yeri və tarixi dəqiqləşdirilmiş, onların tədqiqi istiqamətində çoxsaylı elmi araşdırmalar aparılmış, çoxsaylı kitab, monoqrafiya və ensiklopediyalar nəşr olunmuşdur.



Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamı ilə yaradılan Açıq Səma Altında Muzey mədəni irsimizin mühüm tərkib hissəsi olan daşdan yonulmuş mədəniyyət nümunələrinin qorunub saxlanılması, öyrənilməsi və təbliği işində əvəzsiz rol oynayır. Hazırda “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin tərkibində fəaliyyətini davam etdirən muzeyin ekspozisiyasında nümayiş olunan qoç heykəllər, daş kitabələr, qəbirüstü abidələr, daşdan hazırlanmış müxtəlif təyinatlı məişət əşyaları tamaşaçıda xalqımızın dini inancları, dünyagörüşü, estetik zövqü haqqında dolğun təsəvvür yaradır.

Həsən Kərimov tariximizə, mədəniyyətimizə, muzey işinin inkişafına göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından minnətdarlığını bildirmişdir.

Sonra “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru Nəzakət Əsədova muzeyin fəaliyyət tarixi ilə bağlı çıxış edərək geniş məlumat vermişdir.

Sonda muzeyin ekspozisiyasına baxış olmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin***
***mətbuat xidməti***

## Növbəti əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası dünən Ordubad rayonunda təşkil olunub. Tədbirdə çıxış edənlər bildiriblər ki, aktiv məşğulluq tədbirləri çərçivəsində əmək yarmarkaları işaxtaran vətəndaşların münasib işlə təmin olunmasında, eyni zamanda işəgötürənlərin qısa vaxt ərzində işçi qüvvəsinə olan tələbatının ödənilməsində mühüm rol oynayır.

Yarmarkada, ümumilikdə, 24 müəssisədən 165 boş iş yeri təqdim edilib. Nəticədə, 29 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 6 nəfərin özünüməşğulluq proqramına, 1 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Qeyd edək ki, sözügedən tədbirdə işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də iştirak edib.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

*Hər qarışı bir tarix olan yurd yerimiz Naxçıvan bəşər sivilizasiyasının ilkin mədəniyyət ocaqlarından hesab olunur. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır. Əbəs deyil ki, Naxçıvanı “Cahanın yaraşığı”, “Şərq incisi”, “Ulu diyar”, “Nuh yurdu” adlandırmışlar. Naxçıvana dünya şöhrəti qazandıran amillər sırasında burada mövcud olan tarixi abidələrin adını xüsusilə qeyd etmək lazımdır. Belə abidələrdən biri də “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksidir.*

Dini-mənəvi dəyərlərimiz

# Naxçıvanlıların Tanrı ilə ilahi bağı

## Əshabi-kəhf dağının tarixi həm də dərin və maraqlı tədqiqat obyektidir




“Əshabi-kəhf”lə bağlı uzun illərdən bəri müxtəlifməzmunlu məqalələr, kitablar yazılmış, sənədli filmlər çəkilmiş, verilişlər hazırlanmışdır. Naxçıvanlıların Tanrı ilə ilahi bağı – Əshabi-kəhf dağının tarixi haqqında son dövrlərdə yazılmış ən dəyərli vəsaitlərdən biri yazıçı-jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Rövşən Novruzoğlunun “Əshabi-kəhfə məktub: sürgündə qalan əhli-əyalım var” kitabıdır. Müəllif Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bu müqəddəs məkan, “Qurani-Kərim”də adı keçən “Əshabi-kəhf” mağarası ilə bağlı geniş araşdırmalar aparıbdır.

Qeyd edək ki, tanınmış tədqiqatçı Rövşən Novruzoğlu kitabı ərsəyə gətirmək məqsədilə çoxsaylı arxiv materiallarından, tarixi mənbələrdən istifadə etmişdir. Belə ki, müəllif 7 ildən artıq bir müddətdə dünyanın 12 ölkəsinin arxivlərində araşdırma və tədqiqatlar apararaq bu kitabı ərsəyə gətirmişdir. Əsərin yazılmasına qoyulan qadağalara və çətinliklərə baxmayaraq, Rövşən Novruzoğlu Vatikan arxivlərində tədqiqatlar aparmış və “Əshabi-kəhf”ə aid tam məxfi sənədləri aşkara çıxarmışdır.

Doğrudur, “Əshabi-kəhf” mövzusuna dəfələrlə müraciət olunub. Lakin “Əshabi-kəhf”ə məktub: sürgündə qalan əhli-əyalım var” kitabında bu mövzuya özünəməxsus şəkildə yanaşılıb, yeni və maraqlı faktlar işıqlandırılıb. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə çap olunan kitabda oxucuya qədim dövr səyyahlarının, tarixçilərinin “Əshabi-kəhf” haqqında indiyədək məlum olmayan qeydləri, fikir və mülahizələri, həmçinin bir çox tarixi faktlar və məlumatlar təqdim edilir.

Kitabın yazılmasında çoxsaylı ədəbiyyatdan istifadə olunmuşdur. Kitabın giriş hissəsindən məlum olur ki, əsərin ərsəyə gəlməsində müəllifə Rusiyanın hərbçi generalı, tarix elmlər doktoru, professor İ.A.Antonov arxiv materiallarının əldə olunması baxımından köməklik göstərmişdir.

Dünyada 20-dən artıq ölkədə “Əshabi-kəhf” mağaraları var. Həmin ölkələrin tədqiqatçıları mağaraların adının “Qurani-Kərim”də adıçəkilən “Əshabi-kəhf” olduğunu sübut etməyə çalışırlar. Amma Rövşən Novruzoğlunun kitabda topladığı faktlar onu deməyə əsas verir ki, Quranda adıçəkilən “Əshabi-kəhf” məhz Naxçıvandadır. Bu kitabda həm də ziyarətgah yaxınlığındakı su quyuları, kəhrizlər, o cümlədən Naxçıvanda yaşamış din xadimləri barədə də məlumatlar verilir.

Müəllif kitabın ərsəyə gəlməsində əsas məqsədinin məhz “Əshabi-kəhf”lə bağlı olan məqamlara bir daha toxunmaq olduğunu qeyd edir. “Naxçıvan: “Əshabi-kəhf”in “kompaslı kəhrizləri, xüsusi işarəli” su quyuları” başlıqlı yazıda müəllif vurğulayır: “Vaxtilə Naxçıvana səfər edən Bizans imperatoru II İohann xatirələrində qeyd edirdi: “Məni bu yerlərə qədim əl yazısında oxuduğum “Əshabi-kəhf” adlı bir ərazi gətirdi. “Əshabi-kəhf” – bütün ziyarətgahların düyün nöqtəsidir. O ərazi dağılarsa, yüzlərlə ziyarətgah öz məkanından qaçar...”



Kitabda, eyni zamanda rusiyalı etnoqraf Qriqori Eyzenin səfər təəssüratı haqqında qeydlərinə də rast gəlmək mümkündür: “İslamdan qabaq və sonra Şərq ölkələrindən, eləcə də Avropadan Naxçıvana gələrək rütbə və dövlət sahibləri, sərkərdələr “Əshabi-kəhf”i ziyarət edər, ziyarətgahın çayından içər (kömürlü çay), ən müşkül, çətin və sonu ölümlə nəticələnən müharibələrə gedərdilər”.

Amerikalı alim Uilyam Kemdenin “Əshabi-kəhf” duası haqqında fikirləri diqqət çəkir: “Əshabi-kəhf” duası cəmi altı sözdən ibarətdir. Bu günə qədər bilinmirdi. Qələbə gətirən bu dua, bu altı Allah kəlməsi “...ən qüdrətli dağları... yerindən oynatmaq gücünə malikdir...” “Əshabi-kəhf” məni Allaha yaxınlaşdırdı. Neçə vaxt idi ki, ora – Naxçıvana getmək istəyirdim, amma alınmırdı... Sonradan şiə imamlarından birinin dəstəsinə qoşulub getdim. O əzəmətli torpağa sığınıb müsəlmanlığı qəbul etdim. Mən bunu bacardım. Allah necə də səxavətli və gözəl bir varlıq imiş...”

Amerikalı alim daha sonra tədqiqatlarında yazırdı: “Əshabi-kəhf” təkcə Naxçıvanda deyil, dünyada yeni nəsillərin yetişməsində, həyatda onların cəsarətli, qüdrətli və ləyaqətli yer tutmalarında əhəmiyyətli rol oynayıb.

“Araşdırma materiallarına görə, Roma, qədim yunan, fransız, hind, Çin, Amerika, ingilis, italyan, İran, rus, ərəb filosoflarının böyük bir qismi Naxçıvanda “Əshabi-kəhf”i görmək, ziyarət etmək, oradakı (yəni ətrafda salınmış) kompaslı evlərdə gecələmək, təbabət sularından içib oranı öyrənmək, İmam övladlarını ziyarət etmək arzusunda olublar...”

Rövşən Novruzoğlunun tədqiqatlarından aydın olur ki, London və Kembric universitetlərinin professoru kimi tanınan ingilis filosofu, diplomat və sosioloqu Teynvi Arnold 1958-ci ildə tələbələri ilə birlikdə Naxçıvan – “Əshabi-kəhf”ə gəlmişdir. Professor “Əshabi-kəhf”i ziyarət etdikdən sonra buranı “yeni dünyanın başlanğıcı” adlandırmışdır.

Tədqiqatçı Rövşən Novruzoğlu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqımızın dininə, inanclarına bəslədiyi hörmət və göstərdiyi qayğı məsələlərinə də toxunmuşdur. Qeyd edək ki, məhz bu qayğı və diqqətin nəticəsidir ki, ümummilli liderin himayəsi ilə 1998-ci ildə “Əshabi-kəhf”ziyarətgahı abadlaşdırılmış və bərpa edilmişdir. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulub. Kitabədə deyilir: “Əshabi-kəhf” ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür”.

Müəllif qeyd edir ki, “Əshabi-kəhf” tarixi abidəsi və ziyarətgahına səfərimiz zamanı biz yenidənqurmanın şahidi oluruq. Buraya yol çəkilmiş, məscid tikilmiş, zəvvarlar üçün hər cür şərait yaradılmışdır. Ziyarətgah ərazisində, eyni zamanda “Qonaq evi”, “Bələdçi otağı” və hədiyyələr mağazası da fəaliyyət göstərməkdədir.

“Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksi bu gün nəinki Azərbaycanda, eyni zamanda bütün dünyada məşhur dini turizm obyekti kimi tanınır. Bu kompleks zəngin tarixi ilə yanaşı, təbii gözəllikləri ilə də xarici turistlərin diqqətini cəlb etmək baxımından mühüm əhəmiyyətə malikdir. Müşahidələr göstərir ki, “Əshabi-kəhf”ə gələn zəvvarların sayı ildən-ilə artmaqdadır.

*Vətəndaş olaraq üzərimizə düşən vəzifə “Əshabi-kəhf”i qoruyub saxlamaq, gələcək nəsillərə ərməğan etməkdir. Eyni zamanda bu unikal ziyarətgahı dünya miqyasında təbliğ etməkdir. Bu mənada, yazıçı-jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Rövşən Novruzoğlunun “Əshabi-kəhf”ə məktub: sürgündə qalan əhli-əyalım var” kitabının müstəsna rolu vardır. İnanırıq ki, bu kimi tədqiqat ədəbiyyatlarının yazılması daha da genişlənəcəkdir.*

**Çinarə İSMAYILOVA**
***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının baş kitabxanaçısı***

# Şahmatın tədrisi ilə bağlı yeni nəşrlərin təqdimatı keçirilib




*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə beynəlxalq usta Talıb Babayevin “Naxçıvan Premium Turniri”, “Debüt tələləri 333” və “Həvəskardan ustaya qədər” II cild kitablarının təqdimatı keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev bildirib ki, muxtar respublikamızın şəhər və rayonlarında şahmat məktəbləri müasir tələblərə cavab verəcək səviyyədə tikilərək istifadəyə verilib. Bu tədbirlərin davamı olaraq şahmatı tədris edən müəllimlərin və şahmatsevərlərin dərs vəsaitləri ilə təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır. Hər il federasiyanın dəstəyi ilə müxtəlifadlı dərsliklər çap edilərək şahmatçıların istifadəsinə verilir. Bu gün təqdim edilən hər üç kitab beynəlxalq usta Talıb Babayevin müəllifliyi və tərcüməsi ilə federasiya tərəfindən nəşr olunub.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Ovni Muradov çıxışında diqqətə çatdırıb ki, muxtar respublikamızın quruculuq coğrafiyasında Şahmat Mərkəzi və rayonlarda şahmat məktəbləri mühüm yer tutur. Yaradılan bu infrastruktur nəticəsində gələcəyin güclü şahmatçıları hazırlanır. Eyni zamanda burada olan maddi-texniki baza sayəsində onlayn dərslər, yarışlar həyata keçirilir. Şahmat Mərkəzində isə beynəlxalq yarışlar, turnirlər təşkil edilir. Bütün bunlarla yanaşı, Şahmat Federasiyasının təşəbbüsü və burada fəaliyyət göstərən müəllimlərin və məşqçilərin səyi ilə şahmatın tədrisində mühüm əhəmiyyətə malik dərsliklərin və metodik vəsaitlərin çapı həyata keçirilir. Bütün bunların nəticəsidir ki, muxtar respublika şahmatçıları daim uğurlu nəticələri ilə fərqlənirlər. Həmçinin federasiyanın bu günə qədər bir neçə yeniyetmə şahmatçısının adı məhz Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na daxil edilib. Bunlardan sonuncusu isə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi bu yaxınlarda ölkə çempionu olmaqla istedadını bir daha təsdiqləyən Nazlı Hümbətovadır. Bütün bunlar isə muxtar respublikamızda şahmata və şahmatçılara olan diqqət və qayğının ifadəsidir. Bu il muxtar respublikamızda 16 yaşadək şahmatçılar arasında keçiriləcək şahmat olimpiadası isə Naxçıvanın dünyada şahmat mərkəzi kimi əhəmiyyətini bir daha ortaya qoymuş olur. Ovni Muradov çıxışının sonunda şahmat sahəsində əldə edilən nailiyyətlərin təməlində dayanan diqqət və qayğıya görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.



Tədbirdə Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şahmat müəllimi Fəridə Şükürova və Naxçıvan Qarnizonu tam orta məktəbinin şahmat müəllimi, eyni zamanda federasiyanın məşqçisi Tural Zeynalov çıxış edərək yeni nəşrlərin şahmatın tədrisi keyfiyyətinin yüksəldilməsinə əsaslı təsir göstərəcəyini bildiriblər.

Sonda rayon şahmat məktəblərinin direktorları və müəllimlərə kitablar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Sığortanın həyatımızda önəmli yeri vardır

*Sığorta ölkənin maliyyə sistemini təşkil edən zəncirin əsas halqalarından biridir. Sığorta münasibətləri sistemi bütün dünyada olduğu kimi, ölkəmizdə də XX əsrin əvvəllərindən daha intensiv inkişaf etməyə başlamışdır. Müstəqillik əldə etdikdən sonra isə ölkəmizdə sığorta təşkilatlarının fəaliyyəti uğurla davam etdirilir. Hazırda ölkəmizdə 20-dən çox sığorta şirkəti və bir sıra xarici dövlətin broker və sığorta şirkətlərinin nümayəndəlikləri fəaliyyət göstərir.*

Bu məqalədə insanları sığorta haqqında ən çox maraqlandıran sualları cavablandırmağa çalışacağıq. İlk olaraq gəlin sığortanı əsas anlayış kimi ifadə etməyə çalışaq. Sığorta sağlamlıqdan səyahətə, yaşayış mülkündən avtomobilə qədər həyatda baş verə biləcək riskləri kompensasiya etmək üçün maliyyə hovuzunun yaradılması sistemidir. O, bir növ oxşar risk qrupunda olan şəxslərin maliyyə həmrəyliyidir.

Sual oluna bilər: Biz hansı hadisələrdən sığorta oluna bilərik? Məsələn, çox tez-tez yol-nəqliyyat hadisələri, təyyarə qəzası, binaların yanması barədə eşidir, oğurluqla üzləşən, işlədiyi zaman xəsarət alan insanların hekayəsi ilə tanış oluruq. Hər belə hekayənin arxasında insan faciəsi və bununla əlaqəsi olan şəxslərin narahatlığı dayanır. Bu hadisələr özü-özlüyündə həm də sığorta mexanizminə tələbatın olmasını nümayiş etdirir. Bu mexanizm lazımi qaydada istifadə olunarsa, risklər real hadisəyə çevrildiyi zaman məruz qaldığımız maliyyə çətinliyini aradan qaldırmaqda bizə həm maddi, həm də qismən də olsa, mənəvi cəhətdən yardımçı ola bilər.

Bəs günümüzdə sığortaya etibar etmək olarmı? Tarixboyu bədbəxt hadisələr, fəlakətlərin miqyası, ölüm və sair üçün statistikanın aparılmasının dəqiq elmi metodlarının olmamasına görə, sığorta gəlirli bir iş olsa da, riskli idi. Yalnız bu gün sığorta işində iqtisadi, statistik təhlil metodlarının, sığorta qanunvericiliyi sahəsində sənədlər toplusunun, sığorta qaydalarının olmasını nəzərə alaraq artıq tam rahatlıqla sığorta şirkətlərinə etibar etmək olar.

Hər birimizdə sual yarana bilər ki, bəs sığortanın olması nə üçün vacibdir? Bunu sadə izahla dərk etməyə çalışsaq, düşünməliyik ki, dövründən asılı olmayaraq, hər zaman insanların bütün aktivləri və müəssisələri risk adlanan qeyri-müəyyənlik təhlükəsi altında olub və günümüzdə bu risk daha da yüksəkdir. Sığorta risklərin reallaşması zamanı dəymiş itkiləri əhatə edir və gələcəyin maliyyə baxımından müəyyən olunmasını, fərdlərə və qurumlara etimadı təmin edir, beləliklə, gələcəyi planlaşdırmağa imkan verir və sahibkarlığa həvəsləndirir. Qarşılaşa biləcəyimiz risk sahələrindən asılı olaraq sığortanın icbari və könüllü formada olmaqla, iki əsas növü mövcuddur: həyat və sağlamlıq ilə bağlı şəxsi sığorta və əmlak sığortası.

Bəhs etdiyimiz sığortaların sığortahaqqı nəyə əsasən hesablanır? Əgər könüllü sığorta növüdürsə, sığorta şirkəti qanunvericiliyini nəzərə alaraq hesabladığı tarif əsasında, əgər icbari sığorta növüdürsə, icbari sığorta qanunlarında nəzərdə tutulmuş sığorta tarifinə uyğun haqq ödənilir.

Sığorta müqaviləsi bağlayarkən nələrə diqqət etmək lazımdır? Sığorta müqaviləsini imzalayarkən onu diqqətlə oxumaq, şərtləri ilə dəqiq tanış olmaq lazımdır. Hətta müqavilə bağlanandan sonra sığorta etdirən şəxslə bağlı bütün dəyişikliklər barədə sığorta şirkətinə məlumat verilməlidir.

Bu gün muxtar respublikada tərəflər arasında sığorta münasibətlərinin tənzimlənməsi və sığorta proseslərinə nəzarət Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən həyata keçirilir. Həmçinin ictimai sığorta savadlılığının artırılması sahəsində də müvafiq tədbirlər görülür. Aparılmış təbliğat-təşviqat işlərinin nəticəsidir ki, artıq sığorta ödənişlərinin həcmində, sığortalıların sayında illərdir, dinamik artım müşahidə olunmaqdadır.

*Unutmamalıyıq ki, heç birimiz həyatda baş verə biləcək hadisələrdən sığortalanmamışıq. Gələcəkdə baş verə biləcək sığorta hadisələri zamanı qarşılaşacağımız böyük xərcləri bu gün edəcəyimiz kiçik sığorta haqları ilə əvəzləşdirməklə həm maddi, həm də mənəvi rahatlıq tapmaq mümkündür.*

**Aytac AXUNDOVA**
***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı***

***Ölkəmizin prioritet istiqamətlərindən olan təhsil siyasəti bu gün uğurlu inkişaf yolundadır. Gənclərimizin milli ruhda tərbiyyəsi, onların vətənpərvərlik məfkurəsində inkişafı, elm, təhsil yolunda potensiallarının dəyərləndirilməsi daim dövlətimizin nəzərində uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, artıq cəmiyyətimizdə sağlam əqidəli, mütərəqqi düşüncəli bilikli, savadlı gənc nəsil yetişib və yetişməkdə davam edir. Bununla yanaşı, gənclərimizin, tələbələrimizin istər dərs ili müddətində, istərsə də asudə vaxtlarının daha səmərəli və maraqlı keçməsini təmin etmək üçün dövlətimiz tərəfindən tədbirlər, düşərgələr təşkil olunur. Muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən silsilə tədbirlərdən biri də Gənclərin "Yay məktəbi"dir.***

## Gənclərin "Yay məktəbi" maraqlı və rəngarəng aurası ilə iştirakçıların yaddaşında qalacaq



Məlumat üçün qeyd edək ki, Gənclərin "Yay məktəbi" Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı, Həmkarlar İttifaqları Şurasının dəstəyi ilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, könüllü gənclər və Yeni Azərbaycan Partiyasının fəalları üçün dörd mərhələdə təşkil olunur.

Bir-birindən maraqlı, rəngarəng tədbir proqramı iştirakçılar tərəfindən rəğbətlə qarşılanıb. Onlardan bir neçəsi ilə həmsöhbət olub, üç gün müddətində yaddaqalan təəssüratlarını öyrəndik.

İlk həmsöhbətimiz Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin baş mütəxəssisi ***Xanım İbrahimova*** dedi: – Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin inkişafı ölkəmizdə uğurla davam etdirilir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gənclərin inkişafına, onların ictimai-siyasi fəallığına xidmət edən çoxsaylı layihələr və tədbirlər həyata keçirilir, Dövlət proqramları icra olunur. Bununla belə gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, onların sosial problemlərinin həlli, gənc istedadlara dövlət qayğısının artırılması, müxtəlif sahələrdə yüksək etimad göstərilərək irəli çəkilməsi, bütövlükdə, diyarımızda yüksələn xətlə inkişaf edən gənclər siyasətinin əsasını təşkil edir. Muxtar respublikamızda da bu istiqamətdə uğurlu layihələr həyata keçirilir. Bu layihələr sırasında "Yay məktəbləri"ni xüsusi qeyd etmək istərdim. Artıq neçə illərdir, iştirakçısı olduğum bu layihə çərçivəsində muxtar diyarımızın şəhər və rayon təşkilatlarından olan gənclərin iştirakı ilə öncədən təsdiqlənmiş proqrama uyğun olaraq tədbirlər, seminarlar, təlimlər, intellektual yarışlar təşkil olunur. Gənclər həm maarifləni, həm də onları maraqlandıran müxtəlif mövzular ətrafında müzakirələrdə iştirak edir, asudə vaxtlarını səmərəli keçirirlər. Layihə, eyni zamanda ona görə maraqlı olur ki, gənclər arasında sıx əlaqə və ünsiyyət yaranır. Savadlı, mütaliə edən, bilikli gənclərimizin yaratdığı diskussiyalarda praktik biliklər əldə edə bilirik, necə deyərlər, hər kəs bir-birindən nə isə öyrənir. Mövzu dairəsi geniş olan intellektual oyunların, seminarların keçirilməsində məqsəd gənclərimizi həmin mövzular barədə ətraflı məlumatlandırmaq, onlarda bu istiqamətdə təsəvvür yaratmaqdır. Məktəbin ilk günündə biz "Ünsiyyətin psixologiyası" adlı seminar təşkil etdik. Bu seminarda insanların bir-biri ilə əlaqə yaratması, sosiallaşması kimi zəruri vərdişlərin düzgün istiqamətləndirilməsinin vacibliyini gənclərimizə çatdırdıq. İnanıram ki, bu cür layihələrin davamı gələcəkdə bizləri daha da sevindirəcək.

Digər müsahibimiz, Gənclər Fondunun könüllüsü, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi ***Abutalıb ağa Kəngərli*** də öz fikirlərini bizimlə bölüşdü: – Gənclərin "Yay məktəbi" layihəsi çərçivəsində keçirilən diskussiyalar zamanı müxtəlif aktual mövzular ətrafında fikir mübadiləsi aparmaq nitqimizi inkişaf etdirir, debatlar üçün lazım olan təcrübə, həmçinin sərbəst fikir bildirmək imkanlarımızı artırır. Bir iştirakçı olaraq layihə müddətində topladığım təcrübə karyera imkanlarımın genişlənməsi üçün də stimulverici amildir. Gənclərin "Yay məktəbi" mənim, həmçinin gənc həmfikirlərim üçün böyük bir məktəb, uğurlu bir təcrübədir. Burada olduğumuz müddətdə həm də diyarımızın bir çox yerlərindən qatılan həmyaşıdlarımızla tanış olmaq, maraqlı əlaqə yaratmaq fürsətini əldə edirik. Keçirilən tədbirlər bizdə yeni biliklərin əldə edilməsinə zəmin yaradır. Üç gün bütün fəal gənclərin həyatında öz marağı və faydalı informasiya bolluğu ilə iz qoydu. Bunun bizim gələcək həyatımıza da öz müsbət təsirini göstərəcəyini düşünürəm. "Yay məktəbi"nin bütün iştirakçılarına müvəffəqiyyətlər arzulayıram.

Naxçıvan Dövlət Universitetinin tələbəsi ***Aydın Novruzov*** da fikirlərini bizimlə bölüşdü: – Ağbulaq kəndi muxtar respublikamızın ən dilbər guşələrindən biridir. Havası, təbiəti ilə gələn qonaqlarda heyranlıq doğuran Ağbulaq İstirahət Mərkəzi bu dəfə də bizim mənəvi istirahətimizə ev sahibliyi etdi. Turizm sahəsində təhsil alan bir gənc kimi qeyd etməliyəm ki, burada turizm əhəmiyyətli infrastrukturun qurulması muxtar respublikaya gələn qonaqların diqqətini özünə cəlb edir. Gənclərin "Yay məktəbi" çərçivəsində biz Ağbulaq kəndi ilə yaxından tanış olmaq, buranın təbiət gözəlliyini seyr etmək imkanı əldə etdik. İstirahət mərkəzində gəzintiyə çıxan, buranın imkanlarından yetərincə istifadə edən gənclərimiz, sözsüz ki, bu məkandan xoş təəssüratlarla ayrıldılar. Qeyd edim ki, Ağbulaq ucqar kəndlərimizdən olsa da, müasir görünüşə malikdir. İnsanların rahat yaşaması üçün burada hər cür şərait mövcuddur. Bizim üçün "Yay məktəbi"nin belə gözəl təbiəti olan yerdə təşkil edilməsi çox xoşdur. Bu üç günün bizə qazandırdığı mənəvi zövq, bilik və bacarıqlar, inanıram ki, gələcəkdə də bizim bu tədbirlərə mütəmadi qatılmağımıza zəmin yaradacaq.

*Ümumiyyətlə, gənclərimizin daxili zənginləşməsi, onların hərtərəfli inkişafı baxımından mədəni istirahət, zövqlü əyləncə ələdüşməz bir şərtdir. İnsan ruhən özünü xoşbəxt hiss edəndə onda həyat eşqi, yaşamaq həvəsi, nikbinlik daha da çoxalır. Gənclərimizin və proqram iştirakçılarının təəssüratlarından göründüyü kimi, "Yay məktəbi" də gənclərin dünyagörüşünün formalaşması, fiziki və mənəvi inkişaflarında mühüm rola malikdir. Məlumat üçün onu da qeyd edək ki, layihədə, ümumilikdə, 40 fəal gənc iştirak edib. İnanırıq ki, bu cür layihələr bundan sonra da muxtar respublikamızda sağlam əqidəli gənclərimizin formalaşmasına xidmət edəcək.*

**Məcid RƏŞADƏTOĞLU**

## Ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması iyun ayında da diqqətdə saxlanılmış, təlim, monitorinq və bir sıra tədbirlər keçirilmiş, səyyar sərgi-satışlar təşkil olunmuşdur.*

Ötən ay komitə tərəfindən Naxçıvan Dövlət Universiteti ilə birgə gənclər arasında "Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir" mövzusunda tədbir keçirilmişdir.

Hesabat dövrü ərzində İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsi çərçivəsində muxtar respublikanın rayonlarındakı xüsusi qayğıya ehtiyacı olan 70 qadının iştirakı ilə "Gələcəyini planlaşdır!" və "Sahibkar ol!" təlimləri keçirilmiş, hər bir qadın fəaliyyət istiqamətlərinə görə biznes-plan hazırlamışdır. Sonda təlim iştirakçılarına Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən sertifikatlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın turistik mərkəzlərində istedadlı qadınların əl işlərindən ibarət 7 səyyar sərgi-satış təşkil edilmişdir. Həmçinin komitə tərəfindən müvafiq dövr ərzində "Nuh diyarı-Naxçıvan" infoturunun iştirakçıları üçün Ağbulaq İstirahət Mərkəzində qadınların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur. Ümumilikdə, özünüməşğulluğu təmin edilmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Göycə" festivalında və səyyar sərgi-satışlarda 79 istedadlı qadının 5044 manat dəyərində 673 əl işi satılaraq dəyəri sahiblərinə təqdim olunmuşdur.

Sədərək rayonunda yaşayan xüsusi qayğıya ehtiyacı olan və istedadlı qadınlar üçün dekorativ-tətbiqi sənətin bədii tikmə sahəsinin öyrənilməsi ilə bağlı keçirilən təlimdə 25 qadın iştirak etmişdir. Muxtar respublikada tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi iyun ayında da davam etdirilmişdir. Müvafiq kateqoriyadan olan qadınlarla əlaqə saxlanılmış, peşə növləri haqqında ətraflı məlumat verilmiş, peşə təhsili alması ilə əlaqədar 2 qadının məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsində sərmayə kapitalı verilmiş 4 qadının yaşadığı ünvanlarda sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, nöqsan aşkarlanmamışdır.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 2 uşaq müəssisəsində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1 uşağın evində monitorinq keçirilmiş, uşaq hüquqlarının pozulması halına rast gəlinməmişdir. Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 185 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbdə valideyn, şagird və müəllimlər arasında maarifləndirici tədbir keçirilmişdir. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Naxçıvan Dövlət Milli Dram Teatrında bayram tədbiri keçirilmiş, təhsil, incəsənət və idman sahələri üzrə fərqlənən 19 uşaq komitə tərəfindən Fəxri fərman və hədiyyələrlə təltif olunmuş, "Müstəqillik illərindən bəhrələnən Naxçıvan uşaqları" mövzusunda film nümayiş etdirilmiş, istedadlı uşaqların əl işlərindən, həmçinin uşaq ədəbiyyatından ibarət sərgiyə baxış olmuşdur.

Hesabat dövründə Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş və təkvalideynli uşaqlar, eləcə də şəhid və qazi uşaqları olmaqla, ümumilikdə, 47 uşağın iştirakı ilə "Yay məktəbi" təşkil olunmuşdur. Həmçinin uşaqlar üçün vətənpərvərlik mövzusunda sənədli film, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında tamaşa nümayiş olunmuş, konsert proqramı təşkil edilmiş, "Yay məktəbi"ndə fəal iştirak edən uşaqlar diplomla mükafatlandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Qalib cüdoçular mükafatlandırılıb




*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən şəhid Toğrul Məmmədovun xatirəsinə həsr olunan cüdo üzrə Naxçıvan şəhər açıq turnirinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi turnirdə Naxçıvan cüdoçuları ilə yanaşı, Bakının "Neftçi", "Çempion" və "Şahin" idman klublarının idmançıları mübarizə aparıblar.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov turniri açıq elan edib. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəhid Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədov çıxış edərək turnirin təşkilatçılarına minnətdarlığını bildirib. Eyni zamanda təşkilatçılar tərəfindən Üzeyir Məmmədova xüsusi plaket təqdim edilib.

Tədbirdə çıxış edən Gənclər və İdman Nazirliyinin əməkdaşı Taleh İbrahimov, Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov və Azərbaycan Respublikasının Əməkdar məşqçisi Azər Bağırov turnirin reqlamenti barədə məlumat verib, idmançılara uğurlar arzulayıblar.

Sonra görüşlərə start verilib.

4 yaş qrupu üzrə 17 çəki dərəcəsində keçirilən turnirdə 130 idmançı iştirak edib. Turnirin yekun nəticəsinə əsasən 2005-2007-ci illər təvəllüdlü idmançılar arasında Süleyman Şamilov (55 kiloqram, "Şahin"), Mətin Məmmədov (60 kiloqram, "Neftçi"), Ramil Cabbarov (73 kiloqram, "Neftçi") və İsmayıl Fərəcov (100 kiloqram, Şərur) fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar. 2008-2009-cu illər təvəllüdlü cüdoçuların mübarizəsində Rəhim Qaybalıyev (34 kiloqram, Naxçıvan), Sinan Fərzəliyev (38 kiloqram, Culfa), Məhəmməd Rüstəmli (42 kiloqram, "Neftçi"), Heybət Heydərov (50 kiloqram, "Şahin"), Rəşad Qasımov (55 kiloqram, "Neftçi"), Asim Əliyev (60-kiloqram, Naxçıvan) və Məhəmmədəli Bayramov (60+ kiloqram, Şərur) qalib adını qazanıblar.

Vaqif Əliyev (38 kiloqram, Culfa), Sadiq Rzazadə (50 kiloqram, Naxçıvan) və Səkinə Bağırlı (50 kiloqram, Naxçıvan) 2010-2011-ci illər təvəllüdlü idmançılar arasında birinci olublar. 2011-2012-ci illər təvəllüdlü idmançılar arasında isə David Məmmədzadə (27 kiloqram, Şərur), Rəhman Əliyev (34 kiloqram, Şərur), Yusif Abdullazadə (50+ kiloqram, Naxçıvan) hamıdan güclü olublar.

Sonda qaliblər diplom və medalla təltif ediliblər.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Futbol Federasiyasının birgə təşkil etdiyi 2011-ci il təvəllüdlü futbolçular arasında minifutbol üzrə muxtar respublika çempionatına yekun vurulub.*

## Muxtar respublika çempionatının qalibi məlum olub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunan çempionatda 8 komanda mübarizə aparıb. İlk olaraq meydana 3-cü yer uğrunda "Culfa" və "UGIM Naxçıvan" komandaları çıxıb. Bu görüşdə culfalı futbolçular qalib gələrək (3:1) çempionatın bürünc medalını qazanıblar. Həlledici qarşılaşmada isə azarkeşlər daha gərgin görüşün şahidi olublar. Baxımlı oyun sərgiləyən "Araz-Naxçıvan" komandası "Şərur" komandasını 4:1 hesabı ilə üstələyərək çempionatın baş mükafatını qazanıb.

Mükafatlandırma mərasimində öncə şəhid övladları təşkilatçılar tərəfindən xüsusi mükafatla təltif ediliblər. Sonra çempionatın ən yaxşı qapıçısı, ən yaxşı futbolçusu və ən məhsuldar futbolçusu mükafatlandırılıb. Eyni zamanda qalib komandalara və üzvlərinə diplom, kubok və hədiyyələr təqdim edilib.

Sonda şəhid ailələri və qazilərlə xatirə şəkli çəkdirilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 611